**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZIRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

# MORFEMİKA

**fənninin**

# PROGRAMI

**Bakı-2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZIRLİYİ**

---

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Magistr pilləsi üçün**

**060201 Filologiya ixtisası üzrə**

# SF-M05 Morfemika

**Seçmə fənninin**

# PROQRAMI

**Bakı Dövlət Universitetinin Filologiya fakültəsi Elmi Şurasının 13 dekabr 2019-cu il tarixli 03 saylı Iclasında çapa məsləhət görülmüşdür**

**BAKI-2019**

**TƏRTİB EDƏN:** **Məhəmməd Tofiq oğlu Məmmədov:**

filologiya üzrə fəlsəfə doktoru, dosent.

**ELMİ REDAKTOR:** **Əbülfəz Əjdər oğlu Rəcəbli:**

Filologiya üzrə elmlər doktoru, professor.

**RƏYÇİLƏR:** **Ülviyyə Hüseyn qızı Hüseynova:**

filologiya üzrə fəlsəfə doktoru dosent.

**Cavanşir Xanmurad oğlu Muradov:**

filologiya üzrə fəlsəfə doktoru  dosent.

Nəşriyat..

## İzahat vərəqəsi

**Fənnin məqsəd və vəzifələri.** Bakı Dövlət Universitetinin filologiya fakültəsinin magistr pilləsində "Morfemika" fənni tədris olunur. Fənnin əsas məqsədi dilin ayrıca səviyyəsi, şöbəsi olan morfologiyaya müasir dilçilikdə olan yeni baxışı aydınlaşdırmaqdır. Ənənəvi dilçilikdə morfologiya nitq hissələri haqqında təlim kimi qəbul edilmiş, burada sözün morfoloji quruluşu, sözün qrammatik sinifləri və qrammatik kateqoriyalar öyrənilmişdir. Müasir dilçilik məktəblərində morfologiya bəzən morfemlər haqqında təlim kimi qiymətləndirilir. Morfemləri öyrənən elm sahəsi kimi morfemika bəzən morfologiyanın tərkib hissəsi kimi qəbul edilir, bəzən isə ayrıca dilçilik şöbəsi kimi qiymətləndirilir. Morfemika fənninin tədrisi dilin mərkəzi, ayrıca səviyyə vahidlərindən olan morfemlərin dil sistemindəki yerinin müəyyənləşdirilməsinə, ayrıca dil vahidi kimi onun başlıca xüsusiyyətlərinin öyrənilməsinə, tələbələrin dil strukturuna daha dərindən yiyələnməsinə xidmət edir.

Nəzəri izahat və mətn üzərində iş bu fənnin tədrisində əsas yer tutur.

Fənnin tədrisi prosesində tələbələr bunları **bilməlidir:**

- Dil vahidləri, dil səviyyələri, dilin strukturunun iyerarxiyasını;
- Dilçilikdə mövcud olan morfem nəzəriyyələrini;
- Morfem, fonem və sözün qarşılıqlı əlaqə və münasibətlərini;
- Morfoloji seqmentləşdirmə və morfemlərin eyniləşdirmə qaydalarını;
- Morfemin ifadə və məzmun tərəfinin özünəməxsusluğunu;
- Dil vahidi kimi morfemlərin ümumi xüsusiyyətlərini aydınlaşdırmağı və dil strukturlarının müxtəlifliyi ilə bağlı olaraq ayrı-ayrı dillərdə morfemlərin fərqli xüsusiyyətlərini müəyyənləşdirməyi;
- Kök morfemlərin fonetik, leksik semantik, morfoloji xüsusiyyətlərini;
- Budaq morfemlərin növlərini, struktur-semantik xüsusiyyətlərini.

**Bacarmalıdır:**

- Ayrı-ayrı dillərdə morfemlərin fərqli xüsusiyyətlərini aydınlaşdırmağı;
- Söz və morfemi  fərqləndirmənin əsas amillərini müəyyənləşdirməyi;
- Türk dillərində morfemlərin özünəməxsus xüsusiyyətlərini müəyyənləşdirməyi;
- Mətn üzərində işləməyi, morf və morfem, submorf və kvazimorfları fərqləndirməyi;
- Sıfır morfem, asemantik morfem kimi vahidləri qiymətləndirməyi.

**Yiyələnməlidir:**

- Morfem səviyyəsinin başlıca xüsusiyyətlərinə.

**Fənnin tədris üsulları.** Morfemika seçmə fənni mühazirə və məşğələ şəklində tədris olunur.

**Fənnin tədris prosesində yeri.** Filologiya fakültəsində magistr pilləsində Filologiya (060201) ixtisası, HSM04OOO7-Ümumi dilçilik ixtisaslaşması üzrə SF-M05 Morfemika seçmə fənni 30 saat mühazirə, 30 məşğələ olmaqla 60 saat həcmində tədris olunur. Fənnin həcmi mütəxəssis hazırlığı üzrə dövlət standartlarının tələblərinə uyğundur. Fənn üzrə tədris işinin əsas növü mühazirə və praktiki auditoriya məşğələləridir.

Morfemika fənni nəzəri dilçilik, dilçilik tarixi, tipoloji dilçilik fənləri ilə əlaqəli şəkildə tədris olunur.

**Mövzular üzrə illik saatın bölgüsü**

| Sıra | Mövzuların adı | Cəmi | O cümlədən | |
|---|---|---|---|---|
| | | | Mühazirə | Məşğələ |
| 1 | Morfologiya | 4 | 2 | 2 |
| 2 | Morfologiya və morfemika | 4 | 2 | 2 |
| 3 | Morfemika və morfonologiya | 4 | 2 | 2 |
| 4 | Morfemika, leksikologiya və söz yaradıcılığı | 4 | 2 | 2 |
| 5 | Dilçilikdə morfem məsələsi | 4 | 2 | 2 |
| 6 | Morfem dil vahidi kimi. | 4 | 2 | 2 |
| 7 | Morfemlərin növləri | 4 | 2 | 2 |
| 8 | Kök morfemlər | 4 | 2 | 2 |
| 9 | Kök morfemlərin variantlı xüsusiyyətləri | 4 | 2 | 2 |
| 10 | Kök morfemlərin morfonologiyası | 4 | 2 | 2 |
| 11 | Budaq (şəkilçi) morfemlər | 4 | 2 | 2 |
| 12 | Şəkilçilərin variantlaması | 4 | 2 | 2 |
| 13 | Sıfır morfemlər | 4 | 2 | 2 |
| 14 | Sözdüzəldici morfemlər | 4 | 2 | 2 |
| 15 | Sözdəyişdirici morfemlər | 4 | 2 | 2 |
| Cəmi: | | 60 | 30 | 30 |

**Mövzular və onların məzmunu**

1. **Morfologiya.** Dil sistemi və dil strukturu. Vahid dil sisteminin müxtəlif mürəkkəbliyə malik olan vahidlərdən təşkil olunması. Dil heterogen sistem kimi. Dil səviyyələri. Dil vahidləri. Dil strukturunun iyerarxik təşkili. Dil vahidləri bir-biri ilə qarşılıqlı əlaqə və münasibətdə.

   Morfologiya dilin ayrıca səviyyəsi və dilçiliyin şöbəsi kimi. Ənənəvi dilçilikdə morfologiya. Morfologiya ümumi qrammatik, kateqoriyal mənalarına görə fərqlənən söz qrupları, söz haqqında qrammatik təlim kimi. Söz və söz forma. Öz formalarının vəhdətində mövcud olan söz. Sözün morfoloji quruluşu. Sözün sözdüzəltmə quruluşu. Sözdüzəltmə və formadüzəltmə.

2. **Morfologiya və morfemika.** Struktur dilçilikdə morfologiya. Dil vahidləri və onların konkretliyi məsələsi.Morfem dilin mərkəzi vahidi kimi. Morfologiya və morfemika. Morfemika dilin səviyyəsi və dilçiliyin şöbəsi kimi. Morfemika morfologiyanın tərkib hissəsi kimi. Fonem və morfem dilin mərkəzi vahidləri kimi. Morfemikanın obyekti və predmeti. Mətnin morfoloji səviyyədə seqmentləşdirilməsi. Seqment vahidlərinin morf və qeyri-morf kimi qiyətləndirilməsi. Morfların morfem kimi eyniləşdirilməsi. Morfoloji üzvlənmə: a) tam üzvlənmə; b)formal üzvlənmə; c) qüsurlu üzvlənmə. Morfem və morf, submorf və kvazimorf sözlərinin struktur tiplərinin müəy və morf, submorf və kvazimorf sözlərinin struktur tiplərinin müəyyənləşdirilməsi və təsviri. Ümumi qrammatik məna daxilində morfemlərin mənasının öyrənilməsi.
3. **Morfemika və morfonologiya.** Dilin səviyyələri və aralıq səviyyələri. Aralıq səviyyələr qonşu səviyyələr ilə əlaqədə. Morfonologiya aralıq səviyyə kimi. Morfonologiya və fonologiya. Morfonologiya və morfologiya. Morfonologiya morfemlərin fonem tərkibini, kombinator səs dəyişmələrini və morfoloji əvəzləmələri öyrənən dilçilik şöbəsi kimi. Bu baxımından morfonologiya ilə morfemika bağlıdır.
4. **Morfemika, leksikologiya və söz yaradıcılığı.** Morfemika dilin morfem inventaru haqqında təlimdir. Bu baxımından morfemika həm leksikologiya, həm də söz yaradıcılığı ilə əlaqəyə malikdir. Dilin leksik səviyyəsində müxtəlif tipli

leksik vahidlər, yəni sözlər mövcud olur. Ona görə də lüğət vahidlərinin seçimi morfemlərə görə təhlilə təsir göstərir. Belə ki, alınma sözlər bir sıra spesifik xüsusiyyətlərinə görə dilin başqa vahidlərindən fərqlənə bilər. Filoloq-filologiya-filoloji, geoloq-geologiya-geoloji və s. Dilin elə leksik vahidləri var ki, onlar kök ümumiliyinə malik olaraq, semantik əlaqələrini saxlayır. Lakin kök öz müstəqil mənasını itirdiyi üçün belə sözlər törəmə deyil, sadə sözlər kimi qəbul edilir. Ayıl-ayıq, oyan-oyaq-oyat və s. Bu tipli sözlərin də strukturuna görə fərqləndirilməsi fərqli yanaşma tələb edir. Morfemikanın söz yaradıcılığı ilə əlaqəsi törəmə sözlərin struktur xüsusiyyətlərinin fərqlənməsində özünü göstərir.

5. **Dilçilikdə morfem məsələsi.** Dilçilikdə morfem məsələsi. Boduen de Kurtene tərəfindən cümlənin fonetik-tələffüz və morfoloji-semasioloji baxımdan üzvlənməsini fərqləndirilməsi. Morfoloji-semasioloji baxımdan fərqləndirilən mənalı kiçik vahidin morfem kimi qiymətləndirilməsi. Dilçilik tarixində ilk dəfə olaraq sözün mənalı hissələrinin ayrıca dil vahidi-morfem kimi qəbul edilməsi. Müxtəlif dilçilik məktəblərində morfem məsələsi. Morfem məsələsinə münasibətdə fikir ayrılıqları. Morfem dilin mənaya malik olan kiçik vahidi kimi. Morfem sözün tərkib hissəsi olan mənalı vahid kimi. Dünya dillərinin müxtəlifliyi və bu baxımdan sözün morfoloji vahidlərinin fərqli xüsusiyyətlərə malik olması. Bəzi dillərdə söz və kök morfemin formal baxımdan eyniləşə bilməsi. Sərbəst və asılı formalar. Morfemə sərbəstlik statusunun verilməsi. Bu baxımdan sözün morfem nisbətdə ikinci dərəcəli törəmə vahidi kimi qəbul edilməsi. Müstəqil işlənməsindən və ya sözün tərkib hissəsi olmasından asılı olmayaraq morfemin psixolinqvistik reallığa malik olması.
6. **Morfem dil vahidi kimi.** Morfemin mənasına fərqli münasibətlərin mövcudluğu Morfemin təkcə mənalı vahid deyil, həm də mənalılığa malik olan vahid kimi qiymətləndirilməsi. Morfemin təkcə leksik və qrammatik mənanı ifadə edən vahid deyil, müxtəlif dil mənalarıını ifadə edən vahid kimi. Morfoloji-semasioloji baxımdan fərqləndirilən mənalı kiçik vahidin morfem kimi qiymətləndirilməsi.
7. **Morfemlərin növləri.** Asemantik morfem məsələsi. Struktemlər. Birləşdirici morfemlər. Morfem və morf. Morflar morfemlərin nitq aktındakı ifadəçiləri kimi. Bir-birinə münasibətdə morfların allomorf kimi qiymətləndirilməsi. Morfem xətti və qeyri-xətti vahid kimi. Fövqəlxətti (superseqment) vahidlər məsələsi. Vurğu və

intonasiyanın fövqəlxətti morfem kimi qəbul edilməsi. Morfemin ifadə planı. Morfemin sıfırla ifadə olunması. Dünya dillərində qrammatik mənaların ifadə vasitələri. Qrammatik mənanın hər cürə ifadəsinin morfem kimi qəbul edilməsi. Morfemin ikitərəfli dil vahidi kimi. Morf və morfem. Morfem və sem. Boş morfem-məzmuna malik olmayan morfem. Sıfır morfem ifadəyə malik olmayan morfem. Kök və budaq morfemlər

8. **Kök morfemlər**. Söz kökü və kök morfem məsələsi. Sözün kökü və əsası. Diaxronik və sinxronik baxımdan söz kökü məsələsi. Kök morfemlərin mənası məsələsi. Kökün müstəqilliyi və qeyri-müstəqilliyi. Müxtəlif sistemli dillərdə söz köklərinin fərqli struktur-semantik xüsusiyyətlərə malik olması. Kök morfemlərə iki fərqli baxışın mövcudluğu. Kök morfem sözün tərkib hissəsi kimi. Kök morfem leksik mənaya malik olan mənalı kiçik vahid kimi. Kök morfem və söz. Sözün qrammatik müəyyənliyə malik olması. Bu baxımından dünya dillərinin fərqli xüsusiyyətə malikliyi.
9. **Kök morfemlərin variantlılıq xüsusiyyətləri.** Kökün sabitliyi və qeyri-sabitliyi. Kökün variantlaşması. Kökün dəyişmə səbəbləri. Türk dillərində kök morfemlər. Türk dillərində kökün müstəqilliyi və qeyri-müstəqilliyi. Türk dillərində kök morfemlmlərin variantlaşmasının səbəbləri. Dillərarası variantlılıq. Dildaxili variantlılıq. Diaxronik və sinxronik baxımından variantlılıq. Dillə dialektlər arasındakı variantlılıq. Kökün asemantikləşməsi. Kökün daha mürəkkəb strukturlarda yenidən öz ifadəsini tapması. Türk dillərində ilkin köklər. Təkhecalılıq və çoxhecalılıq. Kökün fonetik quruluşu.
10. **Kök morfemlərin morfonologiyası.** Kökün fonetik quruluşu. Söz kökləri və onların tipləri. Kökün morfoloji inkişafı. Söz əvvəli mövqe, söz sonu mövqe. Saitlərin əvəzlənməsi. Türk dillərində söz kökü. İlkin söz kökləri məsələsi. Məna fərqi ilə müşahidə edilən samit əvəzlənməsi. Məna fərqi ilə müşahidə edilən sait dəyişmələri. Kökün sait və samitlərinin əvəzlənmələrinin məna dəyişmələri ilə nəticələnməsi dilin tarixi inkişafının göstəricisi kimi.
11. **Budaq (şəkilçi) morfemlər və onların törəmə yolları.** Sözlərdən törəyən budaq morfemlər. Mürəkkəb sözün komponentlərindən birinin budaq morfemə çevrilməsi. Müstəqil mənalı sözün köməkçi sözə, köməkçi sözün budaq morfemə çevrilməsi. Bu baxımından dünya dillərinin bir-birindən fərqləndirilməsi. Qovuşuq

xarakterli budaq morfemlər. Budaq morfemlərdə fuziya. İki və ya bir neçə budaq morfemin bir bütöv halına gəlməsi. Budaq morfemlərdə məna diferensiallaşması. Sözdüzəldici budaq morfemlərdən sözdəyişdirici budaq morfemlərin yaranması məsələsi. Sözdüzəldici budaq morfemlərdən sözdüzəldici budaq morfemlərin yaranması. Budaq morfemlərin törəməsində qarışıq münasibətlər

12. **Şəkilçilərin variantlaması.** Leksik və qrammatik budaq morfemlər. Sözdüzəldici və sözdəyişdirici budaq morfemlər. Budaq morfemlərinin təsnifinə semantik və funksional yanaşmalar. Budaq morfemlərin fonetik və morfoloji xüsusiyyətləri. Türk dillərində budaq morfemlərin müəyyənləşməsində ahəng qanununun rolu. İki və dördvariantlı budaq morfemlər. Bir variantlı budaq vahidlər. Budaq morfemlərin variantlaşmasında dilin morfotaktikasının və fonataktikasının rolu. Budaq morfemlərin sözdəki yeri. Sözün önünə qoşulan budaq morfemlər. Sözün daxilində qoşulan budaq morfemlər. Sözün sonuna qoşulan budaq morfemlər. Türk dillərində söz önünün morfoloji cəhətdən passivliyi və bunun səbəbləri. Budaq morfemlərin ardıcıllığı məsələsi. Türk dillərində kök, sözdüzəldici və sözdəyişdirici morfem ardıcıllığı. Morfem ardıcıllığının konkretlik və mücərrədlik prinsipinə əsaslanması. Kök morfem sözün ən konkret vahidi kimi.

13. **Sıfır morfemlər.** Dil vahidlərinin xətti sırada öz ifadəsini tapması məsələsi. Vurğu və morfem anlayışı. Morfoloji səviyyədə, mənalı seqment vahidlərin seçilməsi, morf vəqeyri-morf vahidlər. Dilin işarələr sistemində işarələyən xətti vahiddir, işarələnən isə diskretdir. Bu baxımdan uzun müddət dilçilik ədəbiyyatında sıfır morfem anlayışının qəbul edilməməsi. Azərbaycan dilçiliyində sıfır morfem məsələsi (adlıq hal, əmr şəkli, qeyri-müəyyən təsirlik. yiyəlik hallar və s.)

14. **Sözdüzəldici morfemlər.** Sadə və törəmə sözlər. Törəmə sözlərin motivləşmiş işarələr kimi. Sözdüzəldici morfemlərin yeni söz yaratma və sözə əlavə, leksik məna gətirmə xüsusiyyəti. Yeni yaranmış sözün yarandığı sözün mənasını ehtiva edib etməməsi məsələsi (sinkretizmlər). Sözdüzəldici morfemlərin dilin lüğət tərkibini zənginləşdirməyə xidməti. Sözdüzəldici şəkilçilər variantlılığa görə bölünməsi. 1.təkvariantlı şəkilçilər, 2.ikivariantlı şəkilçilər, 3. dördvariantlı şəkilçilər.

15. **Sözdəyişdirici morfemlər.** Ayrılıqda işlənməyən və sözlərin maddi hissəsinə bitişərək sözlər arasındakı qrammatik münasibəti bildirən, yəni həmin sözləri cümlədəki roluna görə bir-birinə bağlayan şəkilçi-morfemlər. Şəkilçi morfem söz kökünə qoşularaq sözün forma xüsusiyyətlərinə təsir edir. Kök və şəkilçilərin ayrılması məsələsi. Sözdəyişdirici mofemlərin mənası məsələsi. Qovuşuq sözdəyişdirici morfemlər.

**Tədris resursları.**

Tədris avadanlığı və əyani vəsaitlər**.**

**Sərbəst işlərin mövzuları.**

1. Morfologiya
2. Morfologiya və morfemika müqayisəli planda.
3. Morfemika və morfonologiya.
4. Morfemika, leksikologiya və söz yaradıcılığı.

5. Morfem, morf və allomorf.
6. Kök morfemlərinin variantlılığı.
7. Budaq morfemləri.
8. Asemantikləşmiş morfemlər.
9. Sıfır morfemlər.
10. Morfemlərin ifadə və məzmun planı.

**Ədəbiyyat.**


1. Cəlilov F. Azərbaycan dilinin morfonologiyası  Bakı, Maarif, 1988, 288 s.
2. Məmmədov M. Dilçiliyə giriş, Bakı, "Ləman nəşriyyat  poliqrafiya", MMC, 2017, 267 s.
3. Məmmədov M. Linqvistik tipologiya, Bakı, BDU nəşri, 2015, 24 s
4. Veysəlli F, Struktur dilçilik II, Morfemika, Bakı, 212 s.
5. Rəcəbli Ə, Dilçilik tarixi II, Bakı, Nurlan, 2006, 616 s.
6. Rəcəbli Ə, Filoloji dilçilik, Bakı, Elm və Təhsil, 2010, 100 s.
7. Rəcəbli Ə, "London Struktur dilçilik məktəbi" Bakı,Elm və Təhsil,2016,56 s
8. Rəcəbli  Ə, "Nəzəri dilçilik", Bakı, Nurlan, 2003, 515 s.
9. Rəcəbli Ə, "Struktur dilçilik", Bakı, Nurlan, 2005, 530 s.
10. Seyidov Y, "Azərbaycan dilinin qrammatikası" ,Morfologiya, Bakı, Bakı Universiteti nəşriyyatı, 2002, 371 s.
11. Cəfərov S, "Müasir Azərbaycan dili-meksika, II hissə" Bakı, Maarif, 1982, 216 s.
12. Герд А.С. "Морфемика, изд-во с. Петербургского Университета, 2004, 176 с.
13. Баскаков Н.А. "Историко-типологическая морфология тюркских языков, Москва, Наука, 1979, 275 с.
14. Лопатин. В.В. "Русская словообразовательгая морфемика. Москво, Наука, 1977, 316 с.
15. Ничего В.Н. Современный русский язык, словообразование, Москва, Высшая Школа, 1984, 255с.
16. Шанский Н.М. Тихонов А.Н, Словообразование, Морфология, М.Тросбешсние, 1981, 272 с.
17. Кубрякова Е.С. Основы морфологического анализа, Москва, 1974


**Əlavə**

1. Müasir Azərbaycan dili, II cild, Morfologiya, Bakı, Elm, 1980, 510 s
2. Həsənov H. “Müasir Azərbaycan dilinin leksikası" Bakı,Maarif, 1988, 308 s
3. Hüseynzadə M. “Müasir Azərbaycan dili, Morfologiya III hissə" Bakı, Maarif, 1983, 320 s.
4. Sözsüz F. “Ümumi dilçilik kursu” Bakı, BDU nəşri, 2003, 408 s.
5. Исследования по общей теории грамматики, Москва наука 1968, 293 с.
6. Общее языкознание, Внутренняя структура и языка, Москва, Наука 1972, 566 с.
7. Милославский И. Т. Морфология, Москва, 1979 с.
8. Косевич В.Б, Семантика, Синтаксис, Морфология, 1988.
9. Грамматика современного русского языка , Москва, 1970
10. Русская грамматика Т. Москва, 1980.